İlham ƏLİYEV: “Biz birlikdə güclüyük”

# NAFTALAN




Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı

www.naftalan-ih.gov.az

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 9-10 (425) • 30 aprel 2020-ci il • Qiymәti 90 qəpik




## İlham Əliyev növbəti qlobal təşəbbüsü ilə tarix yazdı

## NAFTANLILAR DÖVLƏT BAŞÇISINA MİNNƏTDARLIQ EDİRLƏR

## “Siz xalqımızın xilaskarısınız”

**Dünyanı ağuşuna almış koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı mühüm addımlar, insanların sağlamlığının qorunması ilə bağlı verdiyi qərarlar vətəndaşlar tərəfindən dövlətimizin başçısının xalqa diqqət və qayğısının əyani göstəricisi kimi qiymətləndirilir. Azərbaycan vətəndaşları məhz Prezident İlham Əliyevin gördüyü mühüm işlər nəticəsində xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına əminliklərini bildirir, göstərdiyi diqqət və qayğıya görə ona minnətdarlıq edirlər.**

**Naftalan şəhər sakini Afiq Muradov yazır ki, bu gün bütün dünya ciddi şəkildə sınaqdan keçir:** "Möhtərəm cənab Prezident. Koronavirus infeksiyası bütün dünyada sürətlə yayılır. Sizin qətiyyətli tapşırıqlarınız nəticəsində bu virusun ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində bütün dövlət orqanları tərəfindən ciddi şəkildə iş aparılır. Hazırlanmış sosial-iqtisadi paketlər, həkimlərimizi ilk gündən diqqət mərkəzində saxlamanız bizim gələcəyə ümidimizi daha da artırır. Ölkəmizdə kiçik şübhə doğuracaq hər bir məqama böyük diqqət yetirilir. Virusa yoluxma ehtimalı olan şəxslər dərhal nəzarətə götürülür. Biz həkimlər əminik ki, Sizin müdrikliyiniz və qayğıkeşliyiniz sayəsində bu qorxunc virusdan minimum zərərlə qurtulacağıq.

Sizə və ailənizə cansağlığı arzulayıram. Allah Sizi, dövlətimizi, millətimizi qorusun".

Vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıq edənlər arasında **Naftalan şəhər sakini Hüseyn Məhərov** da var. O, dövlətimizin başçısına ünvanladığı məktubda yazır: "Möhtərəm cənab Prezidentimiz, Sizin yorulmaz əməyiniz sayəsində bu gün ölkəmizdə vəziyyət faciəvi şəkil almadı. Yoxsa biz də başqa ölkələrdə olduğu kimi ağır vəziyyətə düşə bilərdik. Sizin tapşırığınızla respublikamızın bütün bölgələrində, o cümlədən Naftalan şəhərində bu yoluxucu xəstəliyə qarşı təxirəsalınmaz ciddi mübarizənin aparılması nəticəsində artıq ölkəmizdə koronavirus infeksiyasından sağalanların sayı yoluxanların sayını üstələyib. Həmçinin bununla bərabər bu dövrdə işləməyən, yaşı 65-dən yuxarı, tənha və aztəminatlı ailələrin sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasını, sahibkarlara dəstək göstərilməsini xüsusi diqqətdə saxladınız. Çox hörmətli cənab Prezidentimiz, bütün bu işlərə görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı, Vətən və xalq naminə yorulmaz fəaliyyətinizdə yeni uğurlar arzulayırıq. Uca Yaradan günbəgün qüdrətlənən müstəqil Azərbaycanımızı, xalqımızı, Sizi və ailənizi qorusun!".

**Naftalan şəhər sakini Faiq Rüstəmov:** "Möhtərəm cənab Prezidentimiz, bu gün bir daha canlı şahidi olduq ki, bizim Prezidentimiz risklərin qarşısını almaq, onları idarə etmək sahəsində böyük təcrübəyə malikdir. Dünya ölkələri koronavirusla mübarizədə Sizin tərəfinizdən ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirləri, insanların sağlamlığını qorumaq üçün verdiyiniz qərarları nümunə götürür və özlərində tətbiq etməyə çalışırlar. Sizin zəhmətləriniz hesabına ölkəmiz beynəlxalq aləmdə öz sözünü deyən, regionun və dünyanın sayılıb seçilən qüdrətli dövlətdir. Sizin vətəndaşlarımızın hər bir problemi ilə yaxından maraqlanmağınız, onlara dəstək olmağınız bizi qürurlandırır. Azərbaycanı qoruduğunuza, xalqımızla daim bir yerdə olduğunuza görə Sizə minnətdarıq. Sevinirik ki, rəhbərimiz öz xalqına bu qədər diqqət ayırır. İnanırıq ki, Sizin "Biz birlikdə güclüyük!" şüarı ilə səfərbər olan cəmiyyətimiz bəşəriyyəti bürüyən bu bəladan uğurla çıxır. Ulu Tanrı Sizi qorusun, cənab Ali Baş Komandan!".

## 1941-1945-Cİ İLLƏRDƏ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ ŞƏXSLƏRƏ, HƏLAK OLMUŞ VƏ YA SONRALAR VƏFAT ETMİŞ DÖYÜŞÇÜLƏRİN DUL ARVADLARINA, ARXA CƏBHƏDƏ FƏDAKAR ƏMƏYİNƏ GÖRƏ ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLMİŞ ŞƏXSLƏRƏ BİRDƏFƏLİK MADDİ YARDIM VERİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar qərara alıram:

1.1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 (min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 aprel 2020-ci il.**

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARININ "BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 75 İLLİYİ (1945-2020)" AZƏRBAYCAN RESPUBLİKASININ YUBİLEY MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 49-VIQD nömrəli Qanununa uyğun olaraq qərara alıram:

1.1941-1945-ci illər Böyük Vətən müharibəsi cəbhələrində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhələrdə çalışmış, həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilsinlər.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının və onun vəsiqəsinin hazırlanması ilə əlaqədar tədbirlər görsün;

2.2. yubiley medalı ilə təltif olunacaq şəxslərin siyahısının tərtib edilməsini və medalların təqdim olunmasını təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 1 may 2020-ci il.**

# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib. Birinci vitse-prezidentin rəsmi "Instagram" səhifəsində bununla bağlı etdiyi paylaşımda deyilir:

"Ən xoş və saf hisslərlə aşılanan, xeyirxahlıq, mərhəmət və şəfqətin təntənəsini təcəssüm etdirən mübarək Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm. İnanıram ki, bu müqəddəs ayda bütün dua və diləklərimiz qəbul olunacaq və Allah öz mərhəmətini dünyamızdan əsirgəməyəcəkdir. Hər birinizə möhkəm cansağlığı arzulayıram. Allah orucunuzu qəbul etsin!".

## OPERATİV QƏRARGAH:

# Ölkə ərazisində xüsusi karantin rejimi mayın 31-dək uzadıldı

**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılıb.**



Eyni zamanda, əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verilib.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

**Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il saat 00:00-dan etibarən:**

◆dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olunur (fəaliyyəti bərpa olunan dövlət qurumlarının işçilərinin say həddi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən ediləcəkdir);

◆ "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial şahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;

◆ xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;

◆ bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;

◆ bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.

**Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən:**

◆ yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;

◆ "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial şahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;

◆ dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olunur;

◆ restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);

◆ bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürülür;

◆ qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olunur (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla);

◆ xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;

◆ bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;

◆ bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur;

Xüsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixinədək uzadılır.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

Növbəti mərhələdə sanitar-epidemioloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcəkdir.

Qeyd edək ki, COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

## NURLU ÖMRÜN SALNAMƏSİ
## ZƏRİFƏ ƏLİYEVA - 97

# 28 aprel -məşhur oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın doğum günüdür

**Dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş görkəmli oftalmoloq alim, insanlara nur bəxş edən, həyatlarını işıqlandıran akademik Zərifə xanım Əliyevanın anadan olmasının 97-ci ildönümüdür. Adı hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənən akademik bu gün də insanların qəlbində işıq və nur bəxş edən görkəmli şəxsiyyət kimi yaşayır. Akademik Zərifə Əliyeva peşəkar həkim və alim olmaqla yanaşı, həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Bu adların, mükafatların hər biri qürur, iftixar mənbəyidir. Ən şərəflisi isə böyük iftixarla daşıdığı Ana adıdır. Azərbaycanda tibbin inkişafına əvəzsiz töhfələr verən görkəmli alim Zərifə xanım Əliyeva gənclərimiz üçün də mənəvi paklıq nümunəsidir. O, insanlara örnək olan mənəvi baxımdan zəngin bir həyat yaşayıb. Zərifə xanım yazıb-yaratdığı dəyərli elmi əsərləri pedaqoqluq səriştəsi ilə, ideal bir həkim, alim və insan kimi xatirələrdə yaşayır və daim yaşayacaq.**



Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

1942-ci ildə orta məktəbi qurtardıqdan sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir.

Sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə oranı bitirmişdir.

1957-ci ilədək Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilədək böyük elmi işçi, 1967-ci ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanım Əliyevanın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində - H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyeva tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

Onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri ölçüyəgəlməzdir. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparmışdır. Eyni zamanda, "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

Zərifə xanım Əliyeva, eyni zamanda müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur.

Ümummilli Lider Heydər Əliyev dünyasını vaxtsız dəyişən ömür-gün yoldaşını həmişə böyük məhəbbətlə və ehtiramla xatırlayırdı: "Zərifə xanım çox böyük alim olub. Mən həlɘ onunla ailə həyatı quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür. Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Ulu öndər Heydər Əliyev xatirələrində deyirdi ki, mən Zərifə xanım kimi həyat yoldaşımın olması ilə xoşbəxt idim. Bu qibtə doğuracaq bir etiraf idi!

İnsan nə qədər xatırlanırsa, o qədər də yaşayır. Zərifə xanım kimi insanlara nur bəxş edən alim, xoş əməl sahibi olan şəxsiyyətlər heç zaman unudulmur. Onun davamçıları bu gün də akademikin irsindən faydalanırlar.

**İlhamə HÜSEYNOVA,**
**Naftalan şəhər Mərkəzi Xəstəxananın terapevt-kardioloqu, terapiya şöbəsinin müdiri**

▪ Özünü, doğmalarını və dostlarını qorumaq:
▪ Koronavirusa qalib gəlmək üçün
EVDƏ QAL!
Biz birlikdə güclüyük!

# İcra başçısı qalibləri onlayn təbrik etdi





Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərin ümumtəhsil məktəblərinin şagirdləri arasında karantin rejimi müddətində məktəblilərin asudə vaxtlarının səmərəli təşkil edilməsi və şagirdlərin aparılan Preventiv tədbirlər, görülən işlər barədə fikirlərini aşkarlamaq məqsədilə "Koronavirusla mübarizə-Naftalan şagirdlərinin gözü ilə" mövzusunda keçirilən inşa yazı müsabiqəsində ilk 5 yer tutan qalib şagirdlər mükafatlandırılıb.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov qalib olmuş şagirdləri görüntülü olaraq təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıb. İcra başçısı inşa yazı müsabiqəsində iştirak etmiş bütün şagirdlərə öz təşəkkürünü bildirib.

Naftalan Şəhər İcra Hakimiyyətinin əməkdaşları tərəfindən qalib olmuş şagirdlərə evlərində Şəhər İcra Hakimiyyəti tərəfindən fəxri fərman və hədiyyələr təqdim olunub.

Şagirdlərin inşa yazıları Şəhər Təhsil şöbəsinin müəllimləri tərəfindən yoxlanılaraq topladıqları ümumi bala uyğun olaraq qiymətləndirilib.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# NAFTALANLILAR DÖVLƏT BAŞÇISININ ÇAĞIRIŞINA QOŞULARAQ PANDEMİYAYA QARŞI MÜBARİZƏDƏ FƏALLIQ GÖSTƏRİRLƏR

## "Naftalan Sağlamlıq Mərkəzi"MMC aztəminatlı ailələrə yardım edib



Ölkə Prezidenti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək verən və Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan "Naftalan Müalicə Sağlamlıq Mərkəzi" MMC bu günlərdə birlik, nümayiş etdirib.

Şəhər İcra Hakimiyyətinin və "Naftalan Sağlamlıq Mərkəzi" MMC-nin əməkdaşları tərəfindən ərzaq məhsullarından ibarət sovqatlar qeyd olunan kateqoriyadan olan 40-dan çox tənha yaşayan, aztəminatlı, qayğıya ehtiyacı olan ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə, eləcədə, ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

## "Sehirli Naftalan" MMC aztəminatlı ailələrə yardım edib



Cənab Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək verən və Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan "Sehirli Naftalan" MMC tənha yaşayan ahıllara, aztəminatlı və qayğıya ehtiyacı olan ailələrə yardım edib.

Şəhər İcra Hakimiyyətinin qaynar xətt xidmətinə və elektron poçt ünvanına daxil olmuş müraciətlər əsasında tərtib edilmiş siyahıya uyğun olaraq ərzaq məhsullarından ibarət sovqatlar İcra Hakimiyyətinin və "Sehirli Naftalan" MMC-nin əməkdaşları tərəfindən qeyd olunan kateqoriyadan olan ailələrin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə, eləcədə, ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

## "Gözəl Naftalan" MMC aztəminatlı ailələrə yardım edib



Cənab Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək verən və Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan "Gözəl Naftalan" MMC tənha yaşayan ahıllara, aztəminatlı və qayğıya ehtiyacı olan ailələrə yardım edib.

Şəhər İcra Hakimiyyətinin və "Gözəl Naftalan" MMC-nin əməkdaşları tərəfindən ərzaq məhsullarından ibarət sovqatlar qeyd olunan kateqoriyadan olan ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə, eləcə də, ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.



## "Möcüzəli Naftalan Sağlamlıq və İstirahət Mərkəzi" MMC aztəminatlı ailələrə dəstək olub

Cənab Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək verən və Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan "Möcüzəli Naftalan Sağlamlıq və İstirahət Mərkəzi" MMC tənha yaşayan ahıllara, aztəminatlı və qayğıya ehtiyacı olan ailələrə yardım edib.

Şəhər İcra Hakimiyyətinin və "Möcüzəli Naftalan Sağlamlıq və İstirahət Mərkəzi" MMC-nin əməkdaşları tərəfindən ərzaq məhsullarından ibarət sovqatlar qeyd olunan kateqoriyadan olan 40-dan çox ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə, eləcədə, ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

▪ Özünü, doğmalarını və dostlarını qorumaq:
▪ Koronavirusa qalib gəlmək üçün
**EVDƏ QAL!** *Biz birlikdə güclüyük!*

# Naftalan Şəhər İcra Hakimiyyəti və Millət vəkili tərəfindən aztəminatlı ailələrə yardım olunub



Koronavirus infeksiyasının sürətlə yayılma təhlükəsini nəzərə alaraq ölkəmizdə elan olunmuş xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq, Naftalan şəhərində profilaktik tədbirlərlə yanaşı, eyni zamanda sosial tədbirlərdə həyata keçirilir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Milli Məclisin deputatı Anar Məmmədov tərəfindən aztəminatlı ailələrə, qayğıya ehtiyacı olan və tənha yaşayan vətəndaşlara yardım edilib.

Müxtəlif ərzaq məhsullarından və tibbi ləvazimatlardan (tibbi spirt, maskalar və əlcəklər) ibarət bağlamalar Şəhər İcra Hakimiyyətinin əməkdaşları tərəfindən sahiblərinə çatdırılıb.

**REDAKTORDAN**

# SOCAR Naftalanda yaşayan aztəminatlı ailələrə dəstək olub




Cənab Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək verərək SOCAR tərəfindən Naftalan şəhərində, şəhərin Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kəndlərində tənha yaşayan ahıllara, aztəminatlı, qayğıya ehtiyacı olan ailələrə və şəhid ailələrinə yardım edilib.

Şəhər İcra Hakimiyyətinin əməkdaşları tərəfindən ərzaq məhsullarından ibarət sovqatlar qeyd olunan kateqoriyadan olan 500 ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya görə, eləcə də ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Rahim MURADOV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunda aparıcı məsləhətçi**

# Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) "Biz Birlikdə Güclüyük" layihəsi çərçivəsində Naftalanda aztəminatlı ailələrə ərzaq sovqatları paylayıb

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar elan olunmuş xüsusi karantin rejimi dövründə dövlət tərəfindən görülən tədbirlərə dəstək olaraq Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirdiyi layihə çərçivəsində Naftalan şəhərində aztəminatlı və digər həssas kateqoriyadan olan ailələrə ərzaq sovqatları paylanılıb.

Sovqatların "bizbirlikdegucluyuk.az" portalına və 150 Çağrı mərkəzinə daxil olan müraciətlər əsasında ünvanlara çatdırılması təmin edilib.

Sovqat alan ailələr hər zaman olduğu kimi, bu çətin anda da onlara göstərilən xüsusi diqqət və qayğıya görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**




# Naftalanda aztəminatlı ailələrə ərzaq sovqatları paylanıldı



Naftalanda DİXİH şəhər komitəsi tərəfindən koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunan xüsusi karantin rejimi dövründə aztəminatlı ailələrə, qayğıya ehtiyacı olan və tənha yaşayan vətəndaşlara yardım olunub.

# Naftalanda koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə dezinfeksiya işləri davam etdirilir



Respublikamızın bəzi şəhər və rayonlarında karantin rejiminin yumuşaldılmasına baxmayaraq Naftalanda koronavirus (COVİD-19) pandemiyasına rəvac verə biləcək halların tam qarşısının alınması və operativ qərargah tərəfindən tətbiq olunan qaydalara ciddi əməl olunması istiqamətində tədbirlər görülür, gündəlik olaraq zəruri tibbi profilaktik və dezinfeksiya işləri aparılır.

Şəhərin küçə və yolları dezinfeksiyaedici maddə və məhlularla yuyulur, çoxmənzilli yaşayış binalarının ümumi istifadə yerlərində, dövlət müəssisələrində, ticarət və xidmət obyektlərində dezinfeksiya işləri mütəmadi olaraq aparılır.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# "Bravo" supermarketlər şəbəkəsi aztəminatlı ailələrə yardım edib




Ölkə Prezidenti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına əsasən koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar aztəminatlı ailələrə, qayğıya ehtiyacı olan və tənha yaşayan vətəndaşlara dəstək olmaq məqsədilə həyata keçirilən xeyriyyə aksiyası Naftalanda da davam etdirilir.

DSMF-nin Naftalan Şəhər Şöbəsinin əməkdaşları və Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının könüllülərinin iştirakı ilə "Bravo" supermarketlər şəbəkəsi tərəfindən qeyd olunan kateqoriyadan olan 70-dən çox ailəyə ərzaq yardımı paylanılıb.

**REDAKTORDAN**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələri ilə videokonfrans keçirib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələrinin iştirakı ilə videokonfrans keçirib. Mövzu Naftalanda koronavirus pandemiyasına qarşı görülən işlər, xüsusi karantin rejimi ilə əlaqədar qaydaların tətbiqinə nəzarət, həmçinin yerlərdə vəzifə borclarının icrası ilə bağlı vəziyyət və digər məsələlər olub.

Şəhər rəhbəri ilk növbədə koronavirus pandemiyası ilə mübarizə çərçivəsində görülən tədbirlərə toxunub. Bildirib ki, möhtərəm Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı altında Heydər Əliyev Fondu tərəfindən başlanılmış ərzaq yardımı aksiyasına Naftalan şəhəri də qatılıb. Aksiya şəhərdə xüsusi rejimin tətbiq olunduğu ilk günlərdən indiyə qədər həyata keçirilir. Sovqatlar aztəminatlı ailələr,əlil və ağır xəstəliklərdən əziyyət çəkən sakinlər, həmçinin ahıl insanlar üçün təşkil olunub.

Sonra xüsusi karantin rejimində məhdudiyyətlərin bir qisminin yumşaldılması barədə Operativ Qərargahın qərarından irəli gələn məsələlərə toxunulub. Yeni qərarda nəzərdə tutulan qaydaların inzibati ərazi dairələrində əhaliyə çatdırılması barədə göstəriş verilib. Xüsusi rejimlə əlaqədar saxlanılan tələblərin, xüsusən də sanitar-epidemioloji tədbirlərin icrasına nəzarəti daha da gücləndirmək tapşırılıb.Sakinlər ilə yaxından və düzgün iş qurmaq, onların qayğıları və tələbləri ilə daha ciddi maraqlanmaq və vaxtında tədbirlər görmək barədə də göstərişlər verilib.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhərində qanvermə aksiyası keçirilib



Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün keçirilən qanvermə aksiyasına Naftalan Şəhər İcra Hakimiyyətinin əməkdaşları da qoşulub. Naftalan şəhər İcra Hakimiyyətinin əməkdaşları irsi qan xəstəliklərindən, xüsusən də talassimiyadan əziyyət çəkən uşaqlara dəstək olmaq üçün könüllü qan veriblər.

**REDAKTORDAN**

# APRELİN 22-İ ŞÜKÜR ŞURA OĞLU MƏMİŞOVUN DOĞUM GÜNÜDÜR

## Şəhidlər - qəlblərdə azadlıq, istiqlal işığı yandıraraq əsarət buxovlarını qırıb dağıdan mərd igidlər, elimizin-obamızın ən qeyrətli ərləri, xalqımızın vüqarıdır

Məmişov Şükür Şura oğlu 1967-ci il aprel ayının 22-də Ermənistan respublikası Vardenis rayonun Nərimanlı kəndində anadan olub.O, 1985-ci ildə Nərimanlı kənd orta məktəbini bitirib. Şükür orta məktəbi bitirdikdən sonra sürücü və elektrik çilingəri ixtisaslarına yiyələnmiş, 1986-88-ci illərdə isə Maqadan vilayətində hərbi xidmətdə olmuşdur. 1988-ci ilin dekabr ayında məlum hadisələrlə əlaqədar yurdlarından didərgin düşdülər. Şükür Məmişov 1989-cu ilin yanvarından ailə üzvləri ilə birlikdə Naftalan şəhərinə köçdü. Şükür evli idi, bir oğlu var. 1991-ci ilin sentyabr ayında Naftalan şəhərində könüllülər dəstəsinə ilk yazılanlardan biri də Şükür olmuşdur.Şükür Qara Çinar,Xarxabut,Başkənd, Zeyvə, Buzluq,Şəfəq və Gülüstan kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Döyüş yoldaşlarının dediyinə görə 4 may 1992-ci ildə Talış kəndi döyüş mövqeyində gedən şiddətli döyüş zamanı təkbaşına 7 erməni qulunu məhv edib,döyüşçü yoldaşı " İsanın qanını aldım"-deyib. Şükür səhər 5 may 1992-ci ildə" Xocalıların qanını alacam"-deyərək yenidən döyüşə atılaraq erməni quldurlarına başçılıq edən Boris adlı ermənini öldürür.Elə həmin gün Şükür Talış kəndində qəhrəmancasına şəhid oldu. Şükür Şura oğlu Məmişov şəhadət mərtəbəsinə yüksələnədək, 10-dan artıq erməni dığasını məhv etmişdir.



Qəhrəman döyüşçü ölümündən sonra ""Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.
ALLAH rəhmət eləsin !

**REDAKTORDAN**

# Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı Aprel döyüşlərindən dörd il ötür

2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad edib. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçib. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşadıb.

Silahlı Qüvvələrimizin həyata keçirdiyi əks-həmlə əməliyyatının məqsədi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi. Belə ki, 2016-cı ilin martından başlayaraq, Ermənistan silahlı qüvvələrinin birləşmələri cəbhəboyu zonadakı yaşayış məntəqələrini daha sıx atəşə tutmağa başlamışdı. Vəziyyəti gərginləşdirmək məqsədilə erməni hərbi birləşmələri artilleriya qurğularından həm döyüş mövqelərimizi, həm də təmas xəttinə yaxın olan yaşayış məntəqələrini atəşə tuturdu. Düşmən aprelin 2-nə keçən gecə bütün mövqelərimizi, eyni zamanda, mülki əhalini atəşə tutub. Azərbaycan tərəfindən dərhal adekvat tədbirlərin görülməsi ilə bağlı qərar qəbul edilib və qəti cavab zərbələri endirilib. Düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən koordinatlar müəyyənləşdirilib, Ermənistan ordusunun canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Aprel hadisələrində cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti olub. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin öndə və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirib və qəti zərbələrlə sıradan çıxarıb. Uğurlu əməliyyatlar nəticəsində Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Həmçinin Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif edilib.

Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər vardır.

Aprel döyüşləri Azərbaycan xalqının və Ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Həqiqətən də dövlətimizin başçısının dediyi kimi, Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin Ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Uğurlu Aprel qələbəsindən daha da ruhlanan Azərbaycan Ordusu iki il sonra daha bir böyük zəfər qazandı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".

İstər şanlı Aprel döyüşləri və Günnüt zəfəri, istərsə də 2018-ci ilin iyununda və sentyabrında Bakıda keçirilmiş iki möhtəşəm hərbi parad gündən-günə sürətlə inkişaf edən müasir müstəqil Azərbaycan Respublikasının regionun lider dövlətinə, Ordumuzun isə bölgənin ən qüdrətli orduya çevrildiyini bütün dünyaya göstərdi. Bütün bunlar işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini tam əminliklə deməyə ciddi əsas verir.

**Mahmud HƏSƏNOV,**
**Naftalan şəhər İmadəddin Nəsimi adına 1 nömrəli tam orta məktəbin hərbi rəhbəri**

# Təhsil Nazirliyi "Virtual məktəb" layihəsini təqdim edir

Aprelin 2-dən Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verildi.

Layihənin məqsədi Təhsil Nazirliyi tərəfindən yayımlanan teledərslərin interaktivliyini təmin etmək və ümumilikdə məsafədən tədris imkanlarını genişləndirməkdir.

"Virtual məktəb" layihəsi Təhsil Nazirliyi və "Microsoft" korporasiyası arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir. Hər bir şagird "Virtual məktəb" portalında qeydiyyatdan keçərək öz yaşına əsasən sinfə təyin olunacaq və müəllimlər tərəfindən həftəiçi teledərslərdə tədris olunmuş mövzulara uyğun hazırlanmış ev tapşırıqlarını yerinə yetirəcək. Portala hər həftə müxtəlif mövzu və fənlərə uyğun olaraq yeni tapşırıqlar əlavə olunacaq.

"Virtual məktəb" portalında müəllimlər tərəfindən onlayn dərslərin keçirilməsi üçün də imkan yaradılacaq. Eyni zamanda şagirdlər yoldaşları ilə görüntülü və səsli əlaqə yaratmaq üçün "Chat" funksiyasından istifadə edə biləcəklər.

Qeyd edək ki, "Virtual məktəb" portalının mobil tətbiqi də mövcuddur. Bunun üçün şagirdlər "AppStore" və "Google Play" marketlərindən "Microsoft Teams" adlı tətbiqi yükləyib istifadəçi adı və fərdi şifrələri ilə portalda qeydiyyatdan keçə biləcəklər.

Təhsil Nazirliyi bütün şagirdləri və onların valideynlərini aprelin 2-dən başlayaraq virtual.edu.az onlayn portalında qeydiyyatdan keçməyə dəvət edir. Qeydiyyatdan keçmək üçün şagird və valideynlər təlimatla tanış ola bilərlər .

Xatırladaq ki, Təhsil Nazirliyinin təşkilatçılığı ilə martın 11-dən "Mədəniyyət" və "ARB Günəş" kanallarında ölkənin ümumi təhsil müəssisələrinin şagirdləri üçün teledərslərin yayımına başlanılıb. Teledərslər bütün sinifləri və əksər fənləri əhatə etməklə həm Azərbaycan, həm də rus bölmələri üçün əvvəlcədən elan edilmiş cədvələ uyğun olaraq təqdim edilir.

Teledərslər həmçinin həftədə bir dəfə canlı yayımlanır ki, bu da fənn müəllimlərinin şagirdlərin bu və ya digər mövzular üzrə suallarını birbaşa olaraq çəkiliş studiyasından cavablandırmasına və zəruri olan əlavə izahatları verməsinə imkan yaradır. Teledərslərin bütün ölkə ərazisinə yayımlanan televiziya kanalları vasitəsilə nümayiş etdirilməsində əsas məqsəd tədrisdə yaranmış fasilə zamanı hər bir şagird üçün əlçatanlığı təmin etməkdir. Bununla yanaşı, şagirdlər teledərsləri və hər bir fənn üzrə əlavə video materialları Təhsil Nazirliyinin www.video.edu.az elektron portalında onlara uyğun olan vaxtda da izləmək imkanına malikdirlər.

# Naftalan Şəhər Uşaq Musiqi Məktəbi karantin rejimində sosial tədbirlərə qoşulub




Ölkəmizdə koronavirus (COVİD-19) infeksiyasının qarşısının alınması ilə əlaqədar tətbiq edilmiş sosial təcrid şəraitində Naftalan Şəhər Uşaq Musiqi Məktəbinin müəllim və şagird kollektivi öz fəaliyyətlərini internet vasitəsilə onlayn davam etdirirlər. Distant dərs tədris edərək videoyazılar həm fərdi, həm də qrup şəklində aparılır.

Bundan başqa, məktəbin müəllimləri "Evdə qal, təhsilsiz qalma", "Evdə qal, musiqisiz qalma", "Evdə mədəniyyətimizi yaşadaq, mədəniyyətimiz birlikdədir" və s. aksiyalara qoşularaq yalnız karantin dövründə hazırlanmış video materiallar, öz əl işlərindən ibarət sərgi, öz ifaçılıq və yaradıcılıq qabiliyyətlərini nümayiş etdirən videoçarxlar, Azərbaycan və xarici ölkə bəstəkarlarının,eləcə də mədəniyyət və incəsənət xadimlərinin həyat və yaradıcılığını əks etdirən slaydvideolar tərtib edilərək məktəbə təqdim edirlər.

2020-ci ilin aprel-may aylarında videoyazılar əsasında keçirilən "Mədəniyyətimizi virtual məkanda tanıdaq" adlı Respublika müsabiqəsinə biz də qoşulmuşuq.

**REDAKTORDAN**

# Taxıl yığımı zamanı yanğın təhlükəsizliyi tədbirlərinə əməl edilməlidir!



Bu gün taxıl tədarükü iqtisadiyyatımızda gündəmdə olan əsas sahələrdəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçımız və hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi də daima diqqət mərkəzində olmalı, bununla bağlı bütün zəruri tədbirlər həyata keçirilməli və yanğın təhlükəsizlik qaydalarına ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin vəzifəsidir.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitələri ilə tam təmin etməlidirlər. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab vermələri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir.

Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir.

Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özü hərəkət edən kənd təsərrüfatı texnikalarının akkumulyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti küncləlrindən keçən yerlərdə rezin və yaxud plastmas borularla mühafizə olunmalıdır.

Yığımda iştirak edən texnikaların yanğın təhlükəsizliyi tələblərinə uyğun olması hər bir müəssisədə təşkil olunmuş xüsusi komissiya tərəfindən yerli Dövlət Yanğın Nəzarəti orqanı əməkdaşı ilə birgə yoxlanılmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması qəti qadağandır.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirə salınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır. Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır. Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir.

Tarla düşərgələrində, taxıltəmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində "Tütün çəkmək yeri" yazılmış lövhə asılmalıdır. Digər sahələrdə tütün çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o, böyük zəhmət hesabına yetişdirilir.

Elin bu əvəzsiz sərvətini yanğından qoruyun!

**Fövqəladə Hallar Nazirliyinin**
**Dövlət Yanğın Nəzarəti Xidmətinin**
**Cənub regional Dövlət Yanğın**
**Nəzarəti İdarəsi**

# Ramazan ayında düzgün və sağlam qidalanmaq lazımdır



Ramazan ayında düzgün qidalanma qaydalarına daha çox diqqət etmək lazımdır. Balanslı və keyfiyyətli qidalanmaq vacibdir. Ramazan ayı yaz fəslinə təsadüf etdiyindən oruc tutarkən aclıq və susuzluğu hiss etmiş oluruq. Bu səbəbdən imsak və iftarda tərkibində maye olan qidalar qəbul edilməlidir. Mütəxəssislər hesab edirlər ki, fasilələrlə qidalanmaq daha çox faydalıdır. Orqanizmin ehtiyacı olan vitaminlərin, mineralların yetərli miqdarda, balanslı olaraq qəbulu mühümdür. Belə qidaların kifayət qədər qəbul edilməməsi orqanizmə mənfi təsir göstərir və insan özünü pis hiss edir, fiziki və əqli iş qabiliyyəti zəifləyir.

Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a bildirilib ki, nəinki Ramazan ayının imsakında, adi günlərdə belə səhər yeməyi mütləq yeyilməlidir. Əgər imsakda düzgün qidalansaq, gün ərzində həm su, həm də enerji balansımızı qorumuş olarıq. Özümüzü yorğun və halsız hiss etmərik. Mütəxəssislər imsakda toxluq müddətini uzadan, bədəndə su saxlayan qidalara üstünlük verməyi tövsiyə edirlər. Həzm problemi yaşamamaq, qanda şəkərin miqdarını normada saxlamaq üçün lifli qidalardan istifadə artırılmalıdır. Tərkibində yumurta olan səhər yeməyinə qatıq, yulaf və çia toxumu əlavə edilərsə, toxluq hissi daha uzunmüddətli ola bilər.

Həzm sisteminin fəaliyyəti pozulduqda qəbizlik, şişkinlik, qarında qaz problemləri müşahidə oluna bilər. Bu halda bağırsaqların fəaliyyətini yaxşılaşdırmaq məqsədilə qatıq istehlakı artırılmalı və daha çox meyvə-tərəvəzə üstünlük verilməlidir. Maye olaraq bitki çayı, az şəkərli kompot, ayran və süd kimi məhsullar da bağırsaqların fəaliyyətinə müsbət təsir edir.

Orucu ılıq su ilə açmaq lazımdır. 1-2 stəkan su içdikdən sonra zeytun, xurma, tərəvəz salatı və göy-göyərti yemək daha uyğundur. 15-20 dəqiqəlik fasilədən sonra isə əsas yeməklərə başlamaq olar. Birbaşa quru qidanın qəbulu həzm problemləri yarada bilər. Yeməyə ilk olaraq sulu yeməklərdən başlamaq məsləhətdir. Qəbul olunan qidalar yaxşı çeynənməlidir ki, həzmdə problem yaranmasın. Normadan artıq və fasiləsiz qida qəbul etmək ziyandır. Əsas yeməklərdən bir neçə çeşid varsa, birinə üstünlük verilməlidir. Mümkün qədər az yağlı yeməklər qəbul edilməlidir. Xəmir xörəklərinin, qızartmaların, tərkibində sous olan kalorili yeməklərin ramazan ayı boyunca iftar süfrələrində yer almaması tövsiyə olunur. Acılı, müxtəlif ədviyyatlı qidaların, həmçinin turşuların qida rasionuna daxil edilməsi məqsədəuyğun deyil. 1-2 dilimdən çox çörək yemək məsləhət görülmür. Yeməklərdən dərhal sonra şirniyyat qəbulu artıq çəkiyə səbəb olur. Şirniyyat, adətən, yeməkdən 1-2 saat sonra qəbul edilməlidir. Şərbətli şirniyyatların əvəzinə yarım porsiya südlü şirniyyat daha məqbuldur. İftarla imsak arası bol miqdarda su içilməsi tövsiyə edilir. İftardan sonra bağırsağın aktiv fəaliyyəti, qəbul edilmiş qidaların yaxşı həzm olunması üçün piyada gəzmək şərtdir. Oruc tutanlar yuxu rejiminə də düzgün əməl etməlidirlər.

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1.
Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500